











## Bayatılar

Qazağa gəl,
Dostsansa Qazağa gəl,
Yağı düşmən qəbrini,
Əlinən qaz ağa, gəl.

***

İncədənəm,
Soruşsan İncədənəm,
Dünya ac quşa bənzər,
Mən isə incə dənəm.

***

Göy bağlar,
Göy bağçalar, göy bağlar,
Gözəllərdə qaydadı,
Ağ buxağa göy bağlar.

***

Dağları gəzdim gəldim,
Yurd daşın düzdüm gəldim,
Yarı beyvəfa gördüm,
Əlimi üzdüm gəldim.

***

Tala yandı,
Od düşdü, tala yandı,
Gözlərin can alandı,
Könlümü talayandı.

***

Yaz ağzı,
Bülbül gələr yaz ağzı,
Namərddə aman olmaz,
İstər yalvar, ya zağzı.

***

Yolum Aveydən düşdü,
Nəğməsi neydən düşdü,
Düşmənin tənəsindən
Qara saça dən düşdü.

***

Bu dağlar bizim dağlar,
Ay canım-gözüm dağlar,
Düşmənim zalım oldu,
De, necə dözüm dağlar?

***

Bu dərə dərin dərə,
Qamçı vurma kəhərə,
Halalca zəhmətimiz,
Niyə döndü zəhərə?



## Bayatılar

Eləmi daşa düşər,
Göz yaşım daşa düşər,
Bacının müşkül işi,
Yenə qardaşa düşər.

***

Ay qardaş,
Göz yaşlarım çay, qardaş,
Keşkə özüm öləydim,
Deməyəydim vay, qardaş.

***

Ha səni,
Hax saxlasın ha səni,
Xəstə könlü nar istər,
Mənim könlüm ha səni.

***

Bu gün bir Leyli gördüm,
Qəmdən gileyli gördüm,
Dünya mənim deyənin,
Torpaqdan öynü gördüm.

***

Əzizim qanlı dağlar,
Qan tutub qanlı dağlar,
Nə günə qaldım, fələk,
Məni qanın da ağlar.

***

Əzizim qanını budu,
Qan tutub qanını budu,
Getmə gözüm önündən,
Dəmərəm qanını budu.

***

Eləmi öz yerində,
Danış, din öz yerində,
Ədəbi, mərifəti
Gözlə sən öz yerində.

***

Əzizinəm hər işi,
Vaxtında gör hər işi,
Zəhmətə xor baxanlar,
Əsla sayılmaz kişi.

***

Mən aşiq ay dağlarım,
Dərələrim, dağlarım,
Hanı bir vaxt gördüyüm,
O bülbüllü bağlarım...







